Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Jl. Mas Putih Blok D No 29
Permata Hijau Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azjkt@azembassy.or.id

Press-reliz

18 mart 2009-cu ildə Azərbaycan Respublikasında Konstitusiyaya düzəlişlər edilməsi ilə bağlı referendum barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı əlavə olunur.

23 mart 2009-cu il

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatı

18 mart 2009-cu ildə Azərbaycan Respublikasında Konstitusiyaya düzəlişlər edilməsi ilə bağlı referendum keçirilmişdir. Ümumxalq səsverməsinin əsas məqsədi 1995-ci ildə hazırkı Konstitusiyanın qəbul edildiyi dövrdən sonrakı mühüm inkişafın davamı olaraq, konstitusiya əsaslarının yaxşılaşdırılması və gücləndirilməsi olmuşdur.

Azərbaycan Konstitusiyasına düzəlişlərin edilib-edilməməsi ilə bağlı qərarın Azərbaycan vətəndaşlarının şəxsi məsələsi olmasına baxmayaraq, 18 mart konstitusion referendumu Azərbaycanın demokratik inkişafı üçün əhəmiyyətlidir.

Konstitusion referendumun Azərbaycanın ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar qarşısındakı öhdəliklərinə uyğun keçirilməsinə təminat verilməsi üçün müvafiq addımlar atılmışdır. Referendum prosesi azad və açıq keçmiş, Azərbaycan vətəndaşlarının məlumatlandırılmış qərar çıxarması üçün imkan yaradılmışdır. Hökumət azad və ədalətli səsvermənin keçirilməsi və səslərin sayılması üçün, həmçinin səsvermə və səsvermədən sonra şikayətlərə ədalətli, şəffaf və tez baxılması üçün şərait yaratmışdır.

47000 yerli, həmçinin Avropa Şurasının Parlament Assambleyasından, MDB-dən və xarici ölkələrdən olan 177 beynəlxalq müşahidəçi referendumu müşahidə etmişdir. Referendum 20 xarici medianın buraxılışlarında işıqlandırılmışdır. Beynəlxalq müşahidəçilər referendumu müsbət qiymətləndirmiş, səsvermə prosesinin şəffaf olduğunu və yaxşı təşkil edildiyini qeyd etmişlər.

Mərkəzi Seçki Komissiyasının elan etdiyi nəticələrə əsasən, 29 maddədən ibarət bütün təqdim edilmiş düzəlişlər xalqın ciddi və hərtərəfli dəstəyinin təzahürü kimi əksər seçicilər tərəfindən təqdir edilmişdir. Xüsusilə prezidentlik müddətinin aradan qaldırılması düzəlişi də 91,76% səslə dəstəklənmişdir.

Azərbaycan xalqının iradəsini əks etdirmiş referendum və onun nəticələri fundamental azadlıq və demokratik dəyərlər qarşısında Azərbaycanın öhdəliklərini bir daha nümayiş etdirir və ölkənin sabitliyinin, inkişafının ciddi göstəricisi olmasına xidmət edir.